(Əvvəli 6-cı səhifədə).

Baxmayaraq, ötən il həm də 40 min iş yeri bağlanmışdır, burada müsbət dinamika aydın görünməkdədir. Bu uğurlar ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın gələcək inkişafı üçün bizə qoyub getdiyi sosial-iqtisadi siyasətin uğurla həyata keçirilməsinin bəhrələridir. Cənab Prezident İlham Əliyev real vəziyyəti, dünyada gedən prosesləri, ölkə üçün xarakterik olan qabaqcıl, beynəlxalq təcrübəni nəzərə alaraq iqtisadi islahatlar həyata keçirir. Bu islahatların tətbiqi zamanı xüsusi olaraq xalqın maraqları əsas götürülür. Cənab Prezident Azərbaycan xalqını Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrikində demişdir: "Biz müstəqil siyasət aparırıq. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz vardır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan xalqın maraqlarını müdafiə edir. Bizə qarşı olan təzyiqlər, hədə-qorxular bizim siyasətimizə zərrə qədər də təsir etmir və etməyəcək. Biz heç kimdən qorxmuruq. Bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir və ölkəmizin beynəlxalq nüfuzunu qaldırmaqdır".

Bu ifadələr ən başlıcası müxalif ölkələrə və radikal qüvvələrə yerində tutarlı mesajdır. Eyni zamanda ölkənin müstəqilliyinin, əmin-amanlığının qorunub saxlanmasının, xalqın maraqlarının daim müdafiə edilməsinin prinsipial ifadələridir.

Cənab Prezident ölkəyə rəhbərlik etdiyi 12 il ərzində ilk dəfə Prezident seçkiləri öncəsi xalqa verdiyi elə bir vədi yoxdur ki, yerinə yetirməmiş olsun. Ötən bu qısa zaman kəsiyində onun rəhbərliyi altında həyata keçirilən islahatlar miqyasına və əhəmiyyətinə görə keçmişlə müqayisədə bir neçə onilliklər ərzində reallaşması mümkün olmayan islahatlardır. Hazırda müstəqil Azərbaycan ümummilli lider Heydər Əliyevin dövlətçilik və siyasi idarəçilik konvensiyasına istinadən hər il yeni-yeni uğurlara imza atır və ümumidaxili məhsulun inkişaf tempinə görə dünyanın lider dövlətlərindən birinə çevrilməkdədir. Özü də bu uğurlar dünyanı həm iqtisadi, həm siyasi böhranın çulğaladığı, hərbi münaqişələrin, təhlükəsizliklə bağlı risklərin artdığı bir şəraitdə baş tutur. Bəli, bu uğurlar baş tutur ona görə ki, cənab Prezident Heydər Əliyevin sosial-iqtisadi, istərsə də siyasi kursunu mütərəqqi inkişaf konsepsiyasına, yeni dövrün tələblərinə uyğun olaraq davam etdirir, bu konsepsiyanı daha da zənginləşdirir, dünya təcrübəsindən bəhrələnərək onu yerli şəraiti nəzərə almaqla davam etdirir. Eyni zamanda bu prinsipi demokratik proseslərlə də tamamlayır. Bu təcrübəni görə bilən, ona nəzər yetirən, qəlbi xain niyyətlərdən uzaq olan bir çox dövlətlər istər paytaxt Bakı şəhərində, istərsə də regionlarda vaxtaşırı həyatın bu və ya digər sahələri üzrə keçirilən beynəlxalq tədbirlərə toplaşır, inkişafın Azərbaycan modelindən bəhrələnməyə çalışırlar. Təkcə onu demək kifayətdir ki, məhz ötən il cənab Prezident 20 dəfə xarici ölkələrə səfər həyata keçirmiş, 15 dövlət və hökumət başçısı ilə rəsmi görüşmüş, bir sıra qeyri-rəsmi səfərlərdə olmuşdur. Ölkənin bölgələrinə 19 səfərində 62 obyektin açılışında iştirak etmişdir. Bu səfərləri zamanı mövcud vəziyyəti yüksək qiymətləndirmiş, uğurları daha da möhkəmləndirmək üçün tövsiyə və tapşırıqlarını vermişdir. Ötən il Qəbələdə də sosial-iqtisadi inkişaf davam etmişdir. Ümumiyyətlə, Qəbələnin son 12 ildə sosial-iqtisadi inkişafı ilə bağlı əldə edilən uğurlarına nəzər salsaq çox möcüzəli bir tərəqqinin, təsəvvürə sığmayan inkişafın şahidi olarıq. Bu sürətli inkişaf əvvəllər 70 illik sovetlər vaxtında belə mümkün olmamışdır. Qəbələ hazırda dünyanın mədəniyyət mərkəzlərindən biri kimi, turizm bölgəsi kimi tanınmaqdadır. Qəbələyə gələn qonaqlar cəmi 10-12 il ərzində bu qədər sürətli inkişafa öz heyrətlərini gizlədə bilmirlər.

—Biz paytaxt şəhərimizlə birlikdə regionları da inkişaf etdirmədən sürətli inkiaşafa nail ola bilmərik—deyən Prezident İlham Əliyev bu konsepsiyasını uğurla davam etdirir. Son 10 ildə Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə kimi tanınır. Ölkənin iqtisadi inkişaf modeli beynəlxalq qurumların hesabatlarında qiymətləndirilir. Qlobal Rəqabət Qabiliyyətliliyi tərəfindən dərc edilən hesabatda Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətlilik səviyyəsinə görə 140 ölkə arasında 40-cı yerdə qərarlaşıb. MDB məkanında yeddi ildir ki, öz mövqeyini qoruyur. Makroiqtisadi vəziyyət göstəricisi üzrə isə 10-cu yeri tutur. Bu rəqəmlər isə ölkənin inkişaf tempini daha aydın göstərir. 2004-cü ildən sonra ölkədə ümumidaxili məhsul 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə artıb. Ölkə iqtisadiyyatına ümumilikdə 180 milyard dollar investisiya qoyulub. Valyuta ehtiyyatları 50 milyard dolları keçib. 2004-cü ildə bu göstərici 1,8 milyard dollar idi.

12 il ərzində 1 milyon 400 min iş yeri açılmış, bu iş yerlərinin 1 milyonu daimi iş yeridir. İşsizlik 49 faizdən 4,9 faizə düşmüş yoxsulluq isə cəmi 5 faizdir.

Ötən il ölkədə ümumilikdə 170-dən çox sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisələri fəaliyyətə başlamışdır. Bütün bunlar göstərir ki, 2016-cı il üçün ölkədə çox möhkəm baza yaradılmışdır. Cənab ölkə başçısı İlham Əliyev götürmüş olduğu iqtisadi kursu layiqincə davam etdirəcək, onun həyata keçirdiyi qabaqlayıcı tədbirlər dünya iqtisadiyyatında baş verməkdə olan mürəkkəb prosesləri aradan qaldıracaq, ölkənin davamlı inkişafını təmin olunacaqdır.

**Nadir ATAKİŞİYEV.**

# Müasir Azərbaycan, uğurlu siyasət və nəticələr

# TƏQVİMDƏN SƏTİRLƏR

**20 yanvar:** Türk şairi, dramaturq, ictimai xadim, Beynəlxalq sülh mükafatı laureatı **Nazim Hikmət** (1902—1963) anadan olmuşdur. Mütərəqqi fikirlərə görə dəfələrlə həbsdə olmuş. 1950-ci ildə ictimaiyyətin tələbi ilə həbsdən buraxılmış, sonra Moskvada mühacirət həyatı yaşamışdır. Türk poeziyasına sərbəst şeir gətirib. Ssenariləri və əsərlərinin süjetləri əsasında kinofilmlər çəkilib. Arif Məlikov onun eyni adlı poeması əsasında "Məhəbbət əfsanəsi" baletini yazıb. Nazim Hikmət dəfələrlə Azərbaycanda olmuş, sənət adamları ilə dostluq əlaqələri saxlamışdır. Moskvada vəfat etmişdir.

**21 yanvar:** Xalq artisti, əməkdar incəsənət xadimi, Pezident təqaüdçüsü **Şəfiqə Axundova** 1924-cü ildə Şəkidə anadan olmuşdur. Mahnılar, opera və operetta, tamaşalara musiqi yazmış, pedaqoji fəaliyyət göstərmişdir.

Dilçi alim, repressiya qurbanı olmuş **Bəkir Çobanzadə** Krımın Arqın kəndində (1893—1938) anadan olmuşdur, Krım Universitetinin, Bakı Dövlət Universitetinin professoru, SSRİ EA Azərbaycan filialının həqiqi üzvü, Paris Dilçilik Cəmiyyətinin üzvü olmuşdur. Krımda maarif komissarı işləmişdir. Türk dilləri tarixinə, türk dillərinin müqayisəli qrammatikasına, tədris metodikasına dair tədqiqatlar aparmışdır.

.**22 yanvar:** İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru **Həzi Aslanov** (1910—1945) Lənkəranda anadan olmuşdur. Böyük Vətən müharibəsi cəbhələrində igidliklə vuruşmuş, cinahlardan hücum taktikasına görə məşhurlaşmışdır.

Azərbaycan dəzgah boyakarlığının təşəkkülündə, portret və mənzərənin janr kimi formalaşmasında mühüm xidmətləri olan rəssam **Bəhruz Kəngərli** Naxçıvanda (1892—1922) anadan olmuşdur.

**23 yanvar:** Fransız yazıçısı **Stendal** (əsl adı və soyadı Anri Mari Beyldir, 1783—1842) anadan olmuşdur. Əvvəllər orduda qulluq etmiş, Napoleonun bir sıra səfərlərində, o cümlədən Rusiyaya yürüşündə iştirak etmişdir. Bir müddət İtaliyada yaşamış, Fransanın konsulu işləmiş, bir neçə günlüyə Parisə gəlmiş və küçədə qəflətən iflicdən ölmüşdür. 200-dən çox ədəbi təxəllüsü olmuş, lakin Stendal təxəllüsü ilə tanınmışdır. 4 romanı, xüsusilə "Qırmızı və qara" əsəri məşhurdur. Psixoloji romanın böyük ustadlarındandır.

**24 yanvar:** Xalq artisti, məşhur qarmonçalan **Avtandil İsrafilov** 1941-ci ildə Bakıda anadan olmuşdur. Musiqi təhsili olmayan bu sənətkarın eşitmə qabiliyyəti çox yüksəkdir, mahnı və rəqsləri yuksək məharətlə ifa edir.

Fransız dramaturqu **Pyer Oqusten Karon de Bomarşe** (1732—1799) anadan olmuşdur. İlk əsərlərində ictimai bərabərsizlik, dövrünün məhkəmə qaydaları tənqid olunur. Onu dünya ədəbiyyatında məşhurlaşdıran "Sevilya bərbəri", "Fiqaronun toyu" satirik komediyalarıdır. Bu komediyalar əsasında operalar yazılmışdır. "Sevilya bərbəri" operası Bakıda tamaşaya qoyulmuşdur.

**25 yanvar:** Gürcüstanın görkəmli dövlət xadimi **Eduard Şevardnadze** 1928-ci ildə anadan olmuşdur. Müxtəlif dövlət vəzifələrində çalışmış, Gürcüstanın prezidenti olmuşdur.

**26 yanvar:** Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı, publisist və pedaqoq **Firudinbəy Köçərli** (1863—1920) Şuşada anadan olmuşdur. XX əsrin əvvəllərində Tbilisidəki Qori Müəllimlər Seminariyasının Qazax filialının yaradılmasında fəal iştirak etmişdir. Öz zamanına görə bədii ədəbiyyatın ideyalılığı və müasirliliyi, Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmışdır.

**27 yanvar:** Yazıçı, hərbi xadim, Azərbaycan realist nəsrinin ilk nümunələrini yaradan general-mayor **İsmayılbəy Qutqaşınlı** (1806—1869) anadan olmuşdur. 30 il rus orlusunda xidmət etmiş, 1851-ci ildə istefaya çıxmışdır. Sonra Şamaxı quberniya idarəsində işləmişdir. Onun "Rəşidbəy və Səadət xanım" adlı əsəri ilk dəfə Varşavada fransız dilində nəşr edilmişdir . 1852-ci ildə Məkkə ziyarətinə gedərkən qələmə aldığı əsər ilk dəfə "Səfərnamə" adı ilə 1967-ci ildə nəşr edilmişdir.

**28 yanvar: "Azərbaycan"** ədəbi-bədii jurnalı 1923-cü ildə nəşrə başlamışdır. İlk redaktoru Tağı Şahbazi Simurq olub.

Məşhur balet ustası, SSRİ xalq artisti **Leyla Vəkilova** (1927—1999) Bakıda dünyaya gəlib, yazıçı, jurnalist ictimai xadim **Xeyrəddin Qoca** 1950-ci ildə Ağdaşda anadan olmuşdur.

ABŞ-ın keçmiş prezidenti **Franklin Ruzvet** (1882—1945) anadan olub. 4 dəfə ölkəsinin prezidenti seçilib.